

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 may 2023-cü il №38 (2750) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2005-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988-2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 may 2023-cü il

## Mehriban xanım Əliyeva Avropa çempionatının qalibi olan gimnastlarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva mayın 21-də qrup hərəkətləri komandamızın Bakıda keçirilən bədii gimnastika üzrə 39-cu Avropa çempionatının qalibi olması münasibətilə instaqram hesabında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva paylaşımında parlaq qələbə münasibətilə gimnastlarımıza təbriklərini çatdıraraq qeyd edib: "Ura! Sizi təbrik edir, sizinlə fəxr edirəm! Çox möhtəşəmsiniz! Əməyinizə, qələbə əzminizə, gözəlliyinizə və zərifliyinizə görə çox sağ olun!"

Xatırladaq ki, Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız üç lent və iki topla hərəkətlərdə uğurla çıxış ediblər. Gimnastlarımızın möhtəşəm çıxışı hakimlər tərəfindən 32,250 xalla qiymətləndirilib.

## Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Litva Respublikasına rəsmi səfər edib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Vilnüs Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Litvanın ətraf mühit naziri Simonas Gentvilas və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Mayın 22-də Vilnüsdəki Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausediene qarşılayıblar.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verib.

Azərbaycanın və Litvanın Dövlət Himnləri səsləndirilib.

Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Gitanas Nauseda fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Litva nümayəndə heyəti Azərbaycan Prezidentinə və birinci xanım Mehriban Əliyevaya, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Litva Prezidentinə və xanımı Diana Nausedieneyə təqdim olunub.

Sonra birgə foto çəkdirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xatirə kitabını imzalayıblar.

* * *

Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə məhdud tərkibdə görüşü keçirilib.

* * *

Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"i Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Litva Respublikasının ətraf mühit naziri Simonas Gentvilas imzalayıblar.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Litva Respublikasının sosial təhlükəsizlik və əmək naziri xanım Monika Navitskiene imzalayıblar.

"Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı"nı Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskiene imzalayıblar.

* * *

Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub.

Görüşdə Litva Prezidenti Azərbaycanın xüsusilə son on ildə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib.

Söhbət zamanı dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyəti vurğulanıb. Bu xüsusda Litva Prezidentinin Azərbaycana səfəri və həmin səfər çərçivəsində keçirilmiş görüşlərin önəmi qeyd edilib.

Görüşdə ikitərəfli məsələlər müzakirə olunub, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinin, ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyi vurğulanıb. Bu xüsusda informasiya texnologiyaları, kibertəhlükəsizlik, bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib. Litvada keçiriləcək biznes forumun əhəmiyyəti və biznes dairələri arasında birbaşa təmasların qurulmasının vacibliyi qeyd olunub.

Söhbət zamanı nəqliyyat məsələləri, o cümlədən Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr barəsində müzakirələr aparılıb. Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına Litvanın dəstəyi yüksək qiymətləndirilib. Avropa İttifaqı ilə Azərbaycan arasında Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində həyata keçirilən Tvininq layihələrində Litvanın fəal rol oynadığı xüsusi qeyd edilib. Həmçinin bu gün imzalanmış üç sənədin əhəmiyyəti vurğulanıb.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri



(Əvvəli 1-ci səhifədə)

Söhbət zamanı ekoloji təhlükələr haqqında ilkin xəbərdarlıq sisteminin qurulması və tullantıların idarəolunması sahəsində Litva təcrübəsinin Azərbaycanla bölüşdürülməsinin önəmi diqqətə çatdırılıb.

Həmçinin bu gün ölkələrimiz arasında imzalanmış gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Sazişin əhəmiyyəti qeyd olunub, 200-dən çox azərbaycanlı tələbənin Litvada təhsil alması və ölkələrimizin təhsil müəssisələri arasında birgə əməkdaşlığın mövcud olması müsbət amil kimi qiymətləndirilib, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub.

Görüşdə, eyni zamanda, prokurorluq sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb, hər iki ölkənin aidiyyəti prokurorluq orqanları arasında sənədlərin imzalanmasının vacibliyi vurğulanıb.

Eyni zamanda, Litvadakı Azərbaycan icmasının ölkənin inkişafına töhfə verdiyi, onların bu ölkənin sadiq vətəndaşları olduqları diqqətə çatdırılıb.

Görüşdə ikitərəfli əlaqələr, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması məsələləri barədə də fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev litvalı həmkarına Ermənistan ilə Azərbaycan arasında danışıqların aparılması və Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasına dair ölkəmizin baxışları haqqında məlumat verib.

* * *

Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Litva Prezidenti bəyanatla çıxış edib.

### Prezident Gitanas Nausedanın bəyanatı

- Zati-aliləri cənab Prezident.

Əziz qonaqlar.

Mən bu gün - Litvanın paytaxtı Vilnüsdə Sizi salamlayıram. Bir il bundan əvvəl Azərbaycana səfərim çərçivəsində biz əhəmiyyətli müzakirələrə start verdik, ikitərəfli əməkdaşlıq baxımından, həmçinin iqtisadiyyat və təhsil sahələrində də əlaqələrimizi gücləndirmək qərarına gəldik. Əminəm ki, bu səfər Azərbaycan ilə Litva arasında əməkdaşlıq münasibətlərinə yeni müsbət dinamika əlavə edəcək.

Bu gün cənab Prezident Əliyev ilə mən ikinci Litva-Azərbaycan biznes forumunun açılışını edəcəyik. Əminəm ki, bu platformada iqtisadi sahədə yeni imkanlar yaranacaqdır. Eyni zamanda, bu gün ətraf mühit, gənclər və hüquq-mühafizə sahələrində də Litva ilə Azərbaycan arasında əməkdaşlıq haqqında sazişlər imzalandı. Bu, bizim ikitərəfli münasibətlərimizin inkişafına mühüm təkan verəcəkdir.

Litva 2006-cı ildən etibarən beynəlxalq inkişafa dair layihələrdə Azərbaycan ilə bir yerdə iştirak edir. Azərbaycan Litvanın Avropa İttifaqının Tvininq proqramı çərçivəsində tərəfdaşıdır. Həmçinin Azərbaycan Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də həyata keçirilən layihələrin sayına görə Litvanın əsas tərəfdaşıdır.



Litva Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq əlaqələrinin inkişafının tərəfdarıdır. Biz Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də strateji tərəfdaşlığımızın inkişafı üçün yeni imkanlar axtarmalıyıq. Biz Avropa İttifaqının Azərbaycan ilə enerji sahəsində əməkdaşlığı müsbət qiymətləndiririk. Bu əməkdaşlıq Avropa İttifaqının enerji bazarına müsbət təsir göstərmiş, həmçinin Avropa İttifaqının qış ayları üçün təchizatını təmin etmişdir.

Rusiyanın hazırda Ukraynada apardığı qəddar müharibə əməkdaşlığımıza yeni məzmun qatıb. Biz Rusiyanın sanksiyalardan yayınmaması üçün bir yerdə çalışmalı və Ukraynanı qələbəsinə qədər dəstəkləməliyik.

Litva Azərbaycan ilə Ermənistan arasında münaqişənin diplomatik yolla dinc, dayanıqlı və əhatəli həllinin tərəfdarıdır. Litva Avropa İttifaqı və Transatlantik müttəfiqlərimizin bu istiqamətdə səylərini güclü şəkildə dəstəkləyir.

Zati-aliləri, əminəm ki, ölkələrimiz və xalqlarımız arasında dostluq bağları bizi gələcək illər üçün də birləşdirəcəkdir. Təşəkkür edirəm.

* * *

Sonra dövlətimizin başçısı mətbuata bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli xanımlar və cənablar.

Cənab Prezident, ilk növbədə dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam.

Bu gün biz geniş fikir mübadiləsi əsnasında bir çox önəmli məsələləri müzakirə etdik, bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqlədik. Keçən il Prezident Nauseda Azərbaycanda rəsmi səfərdə idi, bu il isə mən Litvada rəsmi səfərdəyəm. Biz bu ilin əvvəlində Davosda da görüşmüşdük. Yəni, bu, özlüyündə onu göstərir ki, aramızda çox fəal siyasi dialoq aparılır və bu dialoq konkret nəticələrlə də tamamlanır. Siyasi müstəvidə əldə edilmiş razılaşmalar, təbii ki, bütün digər sahələrə də öz müsbət təsirini göstərir. Biz çox ümid edirik ki, gələcək illərdə də iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək. Əminəm ki, bu gün keçiriləcək biznes forum bu istiqamətdə atılan önəmli addım olacaqdır.

Biznes qurumlarının birgə fəaliyyəti, əminəm ki, ticarət dövriyyəsinin artırılmasına da gətirib çıxaracaq. Onu da bildirməliyəm ki, hər iki tərəfdən çox böyük maraq var və keçən ilin may ayında Prezident Nausedanın Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda Litva-Azərbaycan biznes forumu keçirilmişdir.

Bu gün biz regional məsələlərlə də bağlı geniş fikir mübadiləsi apardıq. Litva Prezidentini Azərbaycan-Ermənistan sülh danışıqları haqqında məlumatlandırdım. Biz ümid edirik ki, sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək. Baxmayaraq ki, Azərbaycan torpaqları uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında idi. Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdür, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. İşğal edilmiş ərazilərdə demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb. Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir.

Bizim Litva ilə ikitərəfli əməkdaşlıq çərçivəsində, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrində də önəmli rol oynayır və Litvaya bu əlaqələrin inkişafı üçün göstərdiyi səylərə görə təşəkkürümüzü bildiririk. Prezident Nauseda Azərbaycana səfər edəndən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum uğurla icra edilir. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni, ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq.

Biz bu gün, eyni zamanda, Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq. Biz gördük ki, bu istiqamətdə də demək olar, paralel şəkildə gedirik. Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq.

Təbii ki, ölkələrimizi birləşdirən və ümumiyyətlə, qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşür. Biz razılaşdıq ki, müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir.

Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmi ildən-ilə artır və artacaq. Müasir infrastrukturumuz buna imkan yaradır. Xəzər dənizini, Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da bəllidir. Sadəcə olaraq, biz birgə səylərlə həmin birləşmə layihələrini həyata keçirərək bu sahədə də uğurlu əməkdaşlığa nail olacağıq.

Bütövlükdə deyə bilərəm ki, bu gün müzakirə olunan məsələlərin önəmi bir daha onu göstərir ki, Litva və Azərbaycan strateji tərəfdaşlar kimi uğurla bir-biri ilə əməkdaşlıq edir. Əminəm ki, bu səfərdən sonra bu əməkdaşlığa növbəti güclü təkan veriləcəkdir.

Dəvətə və qonaqpərvərliyə görə, bir daha təşəkkürümü bildirirəm.

* * *



Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Litva Respublikasının birinci xanımı Diana Nausediene ilə görüşü olub.

* * *

Mayın 22-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Litva Respublikasının birinci xanımı Diana Nausediene Martyunas Mazvyudas adına Litva Milli Kitabxanası ilə tanış olublar.

Birinci xanım Mehriban Əliyevaya kitabxananın fəaliyyəti barədə məlumat verilib.

Bildirilib ki, əsası 1919-cu ildə Mərkəzi Dövlət Kitabxanası kimi Kaunasda qoyulan bu elm mərkəzi Litvanın əsas elmi-kütləvi mədəniyyət müəssisəsidir. Sonradan adı bir neçə dəfə dəyişdirilən və 1963-cü ildə paytaxt Vilnüsə köçürülən kitabxana 1988-ci ildən Martyunas Mazvyudasın adını daşıyır. 1989-cu ildə ona Milli Kitabxana statusu verilib. Kitabxana 1993-cü ildən ölkənin mədəni irs reyestrinə daxil edilib. Bu, həmçinin Baltikyanı ölkələrdə inşa olunan ilk kitabxana binasıdır.

Kitabxananın əsas fəaliyyət istiqamətləri Litva xalqının yazılı mədəni irsinin toplanması, gələcək nəsillər üçün qorunub saxlanılması və ictimaiyyətə təqdim edilməsinə kömək göstərilməsidir. Kitabxananın fondunda 7 milyona yaxın (1,8 milyon adda) çap məhsulları və digər sənədlər saxlanılır.

Qeyd olundu ki, ixtisaslaşdırılmış yeddi oxu zalının, həmçinin üç tədqiqat mərkəzinin fəaliyyət göstərdiyi kitabxanada milli arxiv sənədləri, nadir kitablar və əlyazmalar, musiqi və vizual incəsənət kolleksiyaları, həmçinin şəxsi kolleksiyalar və sair mövcuddur.

Kitabxana müxtəlif milli və beynəlxalq kitabxana müəssisələri və təşkilatları ilə əməkdaşlıq edir.

Sonra xatirə şəkli çəkdirilib.

Daha sonra kitabxana tərəfindən göstərilən xidmətlər, həyata keçirilən layihələr və bu mədəniyyət müəssisəsinin xarici əlaqələri barədə videoçarx nümayiş olunub.

Sonda birinci xanım Mehriban Əliyevanın adından kitabxanaya Azərbaycanın mədəniyyəti, incəsənəti, tarixi, həmçinin Qarabağ və Şuşa haqqında kitablar hədiyyə edilib.

* * *

Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausediene tərəfindən rəsmi lanç verilib.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri

(Əvvəli 2-ci səhifədə)



Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Baş naziri xanım İnqrida Şimonite ilə görüşü olub.

Əvvəlcə birgə foto çəkdirilib.

Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Baş nazir Litvanın Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramı çərçivəsində həyata keçirilən Tvininq layihələrində fəal rol oynadığını xüsusi qeyd etdi, ölkəsinin bundan sonra da bu sahədə əməkdaşlığa hazır olduğunu bildirib.

Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsinin aparıldığı görüşdə bu sahədə böyük potensialın olduğu vurğulanıb. Xüsusilə investisiyalar, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh danışıqları prosesi haqqında məlumat verib. Qeyd edib ki, Azərbaycan tərəfindən sülh müqaviləsinin imzalanması üzrə beş prinsip təqdim olunub. Həmçinin Azərbaycan bir-birinin ərazi bütövlüyünün və suverenliyinin tanınması prinsipləri əsasında sülh müqaviləsinin imzalanmasına hazır olduğunu dəfələrlə ifadə edib.



Söhbət əsnasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə həyata keçirilən Brüssel sülh prosesinin əhəmiyyəti vurğulanıb. Litvanın Baş naziri ölkəsinin Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunmasını dəstəklədiyini qeyd edib. O, nəqliyyat dəhlizlərinin açılması məsələsində Litvanın ərazisindən keçən və Rusiya ilə Kalininqradı birləşdirən tranzit dəhlizi layihəsi üzrə öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

* * *

Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüsdə Litva Respublikasının müstəqilliyi uğrunda mübarizədə həlak olanların xatirəsinə ucaldılan abidəni ziyarət ediblər.

Dövlətimizin başçısının şərəfinə burada fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

* * *

Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vilnüs Qədim şəhərini gəziblər.

Dövlətimizin başçısına və birinci xanıma Vilnüs Qədim şəhərinin tarixi haqqında məlumat verilib.

Bildirilib ki, Vilnüs Qədim şəhərin arxitekturasında keçmişin və gələcəyin vəhdəti hiss olunur. Şimali Avropanın Orta əsrə aid ən böyük şəhərlərindən sayılan Vilnüsün Qədim şəhər hissəsinin sahəsi təqribən 3,6 kvadratkilometrdir. Burada Avropanın ən qədim qotik, intibah, barokko və neoklassik memarlıq üslublarında inşa olunmuş binalar bir-birini tamamlayır. Ən mükəmməl memarlıq komplekslərindən biri Qədim şəhərin böyük bir hissəsini tutan və 13 həyəti olan Vilnüs Universiteti Memarlıq Ansamblıdır.

Qeyd olunub ki, Vilnüs Qədim şəhərinin universal dəyəri və orijinallığı nəzərə alınaraq 1994-cü ildə UNESCO-nun Ümumdünya irsi siyahısına daxil edilib. Litvanın paytaxtına gələn qonaqlar mütləq Qədim şəhərlə tanış olurlar. Çünki Vilnüsün digər yerləri ilə müqayisədə Qədim şəhərdə diqqət cəlb edən memarlıq abidələri daha çoxdur.

* * *

Birinci xanım Mehriban Əliyeva mayın 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri ilə bağlı instaqram hesabında paylaşım edib.

Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Litva. Səmimi qəbula və qonaqpərvərliyə görə çox sağ olun!".

* * *

Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva biznes forumu keçirilib.

Dövlət başçıları biznes forumda çıxış ediblər.

**Prezident Gitanas Nausedanın çıxışı**

- Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti.

Hörmətli nazirlər, biznes ictimaiyyətinin nümayəndələri, möhtərəm qonaqlar, xanımlar və cənablar.

Mən litvalı həmkarların da iştirakı ilə Azərbaycandan olan çox sayda iş adamını Vilnüsdə salamlamaqdan məmnunam. Ümidvaram ki, bugünkü müzakirələr ölkələrimizə mövcud əlaqələri dərinləşdirməyə və yeni tərəfdaşlıqları inkişaf etdirməyə kömək edəcək.

Bu il Litva və Vilnüs 700 illiyini qeyd edir. Paytaxtımızın mövcudluğunun ilk günləri Litva hökmdarı Gediminas xarici liderlərə, tacirlərə, müxtəlif sosial təbəqələrdən və dindən olan sənətkarlara dəvət məktubları göndərməsi ilə yadda qaldı. O vaxtdan bu yana Litva başqaları ilə birgə fəaliyyət göstərmək, yeni ideyalar əldə etmək və inkişaf etmək üçün ambisiyalı yolla gedir.



Azərbaycan xalqının ulu əcdadları da bu hekayənin bir parçası olaraq hələ XV əsrdə Litva elçilərini qəbul ediblər. Bu gün biz ikitərəfli əlaqələrimizin sağlam vəziyyətinə arxalana bilərik. Azərbaycan Litvanın mühüm tərəfdaşıdır və biz qarşılıqlı faydalı imkanların axtarılmasında maraqlıyıq. Biz Azərbaycanı nəhəng enerji potensialına malik və şaxələndirməyə can atan inkişaf edən iqtisadi güc kimi görürük. Azərbaycan iqtisadiyyatının informasiya texnologiyaları, logistika, istehsal, qabaqcıl ərzaq sənayesi, bərpaolunan enerji kimi müxtəlif sahələri litvalı iş adamlarını cəlb edir. Biz bu qədər məsələləri müzakirə edə bilərik. Keçmişdə Litva özünü yeni şəraitə asanlıqla adaptasiya olmaq və ondan öz xeyrinə istifadə etmək bacarığını sübuta yetirib. Biz güclü sənaye ənənəsinə və intellektual işçi qüvvəsinə arxalanırıq. Bizim rəqəmsal infrastrukturumuz sürətli və əlçatandır, bütün Avropa İttifaqında ən yaxşılarından biridir.



2020-ci ildə qlobal tənəzzül zamanı Litva ümumi daxili məhsulun mənfi dəyişməsinə imkan vermədi. Bu uğurlu antitsiklik iqtisadi siyasət təcrübəsi yeni qlobal tələtümlərin öhdəsindən gəlmə prosesində istifadə edəcəyimiz mühüm təcrübə olmuşdur. Hazırda biz yaşıl texnologiyaların sənaye istehsalatını dəstəkləmək üçün Avropa İttifaqının planlarını nəzərdən keçiririk. Yeni imkanlar inqilabi və sıfır tullantılı istehsalatla təmin olunacaq. Bu, Litva iqtisadiyyatına fayda verəcək. Xalis sıfır tullantılı iqtisadiyyatların inkişafı, həmçinin Litva və Azərbaycan iqtisadiyyatlarını bir-birinə daha da yaxınlaşdıra bilər. Bizim bugünkü özgüvənimiz son on il ərzində möhtəşəm enerji keçidi prosesi ilə dəstəklənmişdir. Bu, Litvaya Rusiyadan enerjinin, o cümlədən neft, elektrik enerjisi və təbii qazın təchizatını tamamilə dayandıran ilk Avropa ölkəsi olmağa imkan verdi. Hazırda iqtisadi model yanaşmasında fiksə edilmiş aşağı qiymətli enerji həm qurudakı, həm də dənizdəki bərpaolunan enerji mənbələrindən generasiya olunur. Bu, bizim istehsal və xidmət sektorlarımızın rəqabət qabiliyyətini əhəmiyyətli şəkildə gücləndirəcək. Azərbaycan sahibkarları bundan faydalanmaq üçün bu prosesə qoşula bilərlər.

Məmnuniyyətlə qeyd edirəm ki, birinci iqtisadi toplantı ötən il Bakıda keçirildi. Orada mənə Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti ilə biznes forumunun açılışını etmək şərəfi nəsib oldu. Bu gün mən həqiqətən də inanıram ki, ölkələrimiz təkcə iqtisadi cəhətdən yox, eyni zamanda, elm, təhsil və mədəniyyət sahələrində də bir-biri ilə əlaqələr qurmalıdırlar. Yol genişdir və bizim qarşımızdadır. Qoy, bu biznes forumu doğru istiqamətdə atılmış əlavə addım olsun.

Mən bu biznes forumunu təşkil etdiklərinə görə Litvanın Litfood agentliyinə, İnnovasiya Agentliyinə, Sənayeçilər Konfederasiyasına və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu - AZPROMO-ya və iştirak edən bütün digər təşkilatlara xüsusi təşəkkürümü ifadə etmək istəyirəm. Hamınıza maraqlı və faydalı müzakirələr arzulayıram. Təşəkkür edirəm.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Prezident Nauseda.

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən bir daha cənab Prezidentə göstərilmiş qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Gözəl ölkənizə yenidən gəlməyimə, ikitərəfli və regional məsələlərə, o cümlədən iqtisadi gündəliyə dair cənab Prezidentlə geniş fikir mübadiləsi aparmaqdan çox şadam. Bir il ərzində ölkə rəhbərlərinin ikinci dəfə biznes forumda çıxış etməsi faktı ölkələrimizin biznes subyektləri və sahibkarları arasında təmaslara böyük əhəmiyyət verdiyimizin təzahürüdür.

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri

(Əvvəli 3-cü səhifədə)



Hesab edirəm ki, Prezident Nauseda ilə əməkdaşlığımız üçün çox güclü bünövrə qoymuşuq, çox fəal siyasi dialoq qurmuşuq. Artıq söylədiyim kimi, biz ötən ilin mayında Bakıda görüşdük. Sonra bu ilin yanvarında Davosda görüş keçirdik. İndi isə Vilnüsdə görüşürük. Bu, həqiqətən əməkdaşlığımızın dinamik xarakterini göstərir. İndi isə biznes icmaları üçün qarşılıqlı surətdə faydalı və məhsuldar əməkdaşlığı ehtiva edən uzun perspektivli plan üçün vaxt yetişib.

İki həftə öncə burada, Vilnüsdə Litva-Azərbaycan hökumətlərarası komissiyası iqtisadi gündəliyimizdə duran mühüm məsələləri müzakirə etmək məqsədilə öz iclasını keçirdi. Hesab edirəm ki, birgə iqtisadi komissiyanın oynadığı rol biznes dairələrinin səylərini əlaqələndirməkdən, potensial əməkdaşlıq üçün mühüm imkanları dəyərləndirməkdən və tərəfdaşlığın çərçivənin yaradılmasından ibarətdir.

Bu baxımdan planlarımız barədə məlumat mübadiləsi çox əhəmiyyətlidir. Əminəm ki, bu gün keçirilən biznes forumda ölkələrimizdə icrası planlaşdırılan layihələrin növləri, o cümlədən işgüzar dairələrin onlarda iştirakı yolları barədə bir çox müzakirələr olacaq. Bu gün biz cənab Prezidentlə əməkdaşlıq üçün potensial sahələri geniş şəkildə müzakirə etdik. Prezident onları artıq qeyd etdi. Fikrimcə, potensial həqiqətən var. Biz bərpaolunan enerji sahəsinə yatırımlar baxımından eyni istiqamətdə gedirik. Hər iki ölkədə - Baltik və Xəzər dənizlərində çox böyük külək enerjisi potensialı var. Hər iki ölkə bu məsələni gündəliyimizə daxil edib. Bizə gəldikdə, bizdə enerji təhlükəsizliyi mövcuddur. Lakin, bununla belə, biz ixrac məqsədləri üçün daha çox təbii qaza qənaət etmək və elektrik enerjisinin istehsalı üçün təbiətimizin günəş və külək enerjilərindən istifadə etmək istərdik. Xüsusən də, nəzərə alsaq ki, ötən ilin iyulunda Avropa Komissiyası və Azərbaycan Enerji sahəsində Strateji Tərəfdaşlıqla bağlı Anlaşma Memorandumunu imzaladılar. Biz onun əsasında 2027-ci ilə qədər Avropaya təbii qaz təchizatımızı iki dəfə artırmağı planlaşdırırıq. 2021-ci ildə Avropaya təbii qaz təchizatımız 8 milyard kubmetr olmuşdur, bu il isə 12 milyard kubmetr olacaq və 2027-ci ilə qədər 20 milyard kubmetrə çatdırılacaq. Fikrimcə, bu, minimal həddi təşkil edir, çünki potensial çoxdur. Biz mövcud yataqlardan daha çox qaz hasil edirik. Bu yaxınlarda Xəzərdə ən iri yataqlardan birində hasilatın başlanmasını elan edəcəyik. Həmçinin bərpaolunan enerji mənbələrinə qoyulan sərmayələr təbii qaza ixrac məqsədləri üçün qənaət etmək imkanını yaradacaq.

Buna görə Avropanın etibarlı təchizatçısı kimi Azərbaycan bu gün neft, təbii qazı və elektrik enerjisini ixrac edir. Biz hidrogeni, o cümlədən yaşıl hidrogeni ixrac etməyi planlaşdırırıq. Bütün bunlar bizim Avropa İttifaqı ilə əməkdaşlığımızın strateji çərçivəsinin bir hissəsidir. Biz Azərbaycanın və Avropa Komissiyasının daha yaxın olmaq səylərinə verdikləri daimi dəstəyə görə litvalı dostlarımıza və tərəfdaşlarımıza minnətdarıq.

Düşünürəm ki, işgüzar dairələrin nəzərə alacağı digər mühüm sahə logistika, şəbəkələr və daşımalarda olan böyük potensiala aiddir. Biz daşımalar sektorunu yalnız tranzit gəlirləri baxımından yox, o cümlədən kiçik və orta müəssisələr üçün marşrut boyunca istehsal qurmaq, biznes təmasları yaratmaq, xidmət göstərmək fürsəti kimi görürük.

Bu gün Litva və Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Beləliklə, biz Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq və bu, mümkündür. Çünki biz Avropanın enerji xəritəsinə nəzər salsaq, o, əsasən, Azərbaycanın təşəbbüsləri sayəsində kəskin şəkildə dəyişib. Neft və qaz boru kəmərləri tamamilə yeni vəziyyət yaradır. Eyni sözləri daşımalara da aid etmək olar. Biz qonşularımız və tərəfdaşlarımızla yeni bağlantılar yaratmışıq. Biz Bakının dəniz limanı infrastrukturuna böyük yatırımlar edirik. Xəzərdə daha çox yük daşıya biləcək əlavə gəmilərin tikintisinə investisiyalar qoyuruq. Buna görə, hesab edirəm ki, biznes dairələrə bu fürsəti dəyərləndirmək üçün münasib vaxtdır. Yubanmaq lazım deyil, çünki birmənalı olaraq, çox böyük daşımalar imkanları, xüsusən də hazırkı geosiyasi vəziyyətdə əlavə dəyər gətirəcək.

Həmçinin litvalı dostlarımıza məlumat vermək istərdim ki, Azərbaycan iqtisadiyyatı sabitdir, münbit investisiya şəraiti var və o, təbii sərvətlərə əsaslanır. Lakin hazırda, eyni zamanda, əsas hədəf şaxələndirmədir. Düşünürəm ki, biz iqtisadiyyatımızı xeyli şaxələndirə biləcəyik və enerji sektorundan asılılığı azaldacağıq. Baxmayaraq, enerji sektoru enerji təhlükəsizliyimizdə və Avropanın enerji təhlükəsizliyində öz mühüm rolunu oynamağı davam etdirəcək.

İqtisadi göstəricilərimiz müəyyən statistik məlumatlarda əks olunub. Litva şirkətlərini Azərbaycana daha çox cəlb etmək üçün demək istəyirəm ki, bizim xarici borcumuz çox aşağıdır, ümumi daxili məhsulun 10 faizindən də azdır. Milli valyutamız sabitdir. Əminəm ki, sabit qalacaq, çünki xarici ticarət balansında artıqlıq yaranıb. Bu, kifayət qədər böyük həcmdir. Dövlət Neft Fondumuzda topladığımız valyuta ehtiyatlarımız və Mərkəzi Bankın ehtiyatları xarici borcu on dəfədən çox üstələyir. Beləliklə, iqtisadiyyatımızın sabitliyi regional iqtisadi əməkdaşlıq və sərmayə mühiti üçün mühüm amildir, çünki münbit investisiya mühiti təkcə yaxşı qanunvericiliyin yazılması ilə şərtlənmir. Bu, kifayət deyil. Yaxşı biznes imkanlarının, çox dinamik yerli bazarın və qonşu bazarlara çıxışın olması vacibdir. Buna görə, Azərbaycan bazarı genişlənir, əhali artır. Mərkəzi Asiya bazarlarına çıxış təmin edilir. Həmçinin ölkənizin yerləşdiyi regionla güclü bağlantıların qurulması birmənalı olaraq əlavə imkanlar yaradacaq.

Bir sözlə, əminəm ki, bu görüş yaxşı nəticələr verəcək. Artıq qeyd edildiyi kimi, bu gün bir sıra sənədlər imzalandı. Ümid edirik ki, onların hamısı yaxşı nəticələr verəcək və bu cür toplantıların səmərəliliyini nümayiş etdirəcək. Həmçinin bu fürsətdən istifadə edərək, mən Litvanın biznes icmasından olan dostlarımızı Azərbaycana səfərə və dialoqu davam etdirməyə dəvət edirəm.

Çox sağ olun.

* * *

Litvanın iqtisadiyyat və innovasiyalar naziri xanım Auşrine Armonaite biznes forumda çıxış edərək Azərbaycanın Cənubi Qafqaz regionunda Litvanın önəmli tərəfdaşı olduğunu qeyd edib. Nazir Litvanın iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirib. İki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin çoxşaxəli olduğunu qeyd edən Auşrine Armonaite Litvanın birbaşa qarşılıqlı xarici investisiyaların stimullaşdırılmasında maraqlı olduğunu vurğulayıb. Ölkələrimiz arasında əməkdaşlıq layihələrinin genişləndirilməsində çoxlu imkanların mövcud olduğunu qeyd edən litvalı nazir Azərbaycanla ən yaxşı təcrübə, ekspert biliyi və uğur hekayələri ilə bölüşməkdə maraqlı olduqlarını deyib.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov iki ölkə arasında investisiyaların qorunması və ikili vergiqoymaya yol verilməməsi mexanizminin mövcud olduğunu bildirib, bunun investorların fəaliyyətinə töhfə verdiyini qeyd edib. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi hədəfindən danışan Mikayıl Cabbarov ötən dörd ildə ölkəmizin qeyri-neft-qaz ixracının iki dəfə artdığını deyib. Alternativ enerji mənbələrindən danışan nazir bu enerji mənbələrinə keçidin Azərbaycanın iqtisadiyyatına əhəmiyyətli və müsbət təsir etdiyini vurğulayıb.

* * *

Biznes forumda hər iki ölkədən iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən, ümumilikdə, 80-dək şirkət təmsil olunub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasına rəsmi səfəri mayın 22-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Vilnüs Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

## ƏİK bölmələrinin yenidən qiymətləndirmə təliminin "Məsləhətçi görüşü" keçirilib



NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində Azərbaycan Ordusunun ƏİK taboru və kəşfiyyat bölüyünün "2-ci səviyyəli yenidən NATO qiymətləndirilməsi (NEL-2) təlimi"nin məsləhətçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Alyansın müxtəlif qərargahlarından gələn xarici mütəxəssislərin iştirakı ilə keçirilən görüşdə iştirakçılara NEL-2 təliminin planlama və hazırlıq vəziyyəti izah olunub.

Qeyd edək ki, görüşün keçirilməsində əsas məqsəd ƏİK proqramına bəyan edilmiş bölmələrimizin döyüş hazırlığı fəaliyyətləri, təminat və təchizatlarının NATO standartlarına uyğunluğunu yoxlamaq, eləcə də bölmələrin döyüş qabiliyyətinin yoxlanılması məqsədilə tərtib olunmuş qiymətləndirmə suallarının dəqiqləşdirilməsi və təsdiqlənməsidir.



# Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Pakistana rəsmi səfəri başlayıb



Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Asim Munirin dəvəti ilə mayın 23-də bu ölkəyə rəsmi səfərə gedib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində general-polkovnik K.Vəliyevin Pakistanın hərbi rəhbərliyi ilə görüşü, həmçinin bir sıra hərbi təyinatlı müəssisələrə ziyarəti nəzərdə tutulub.

# Hərbi Dəniz Qüvvələrində taktiki təlim keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) taktiki təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir



ki, təlimin planına uyğun olaraq gəmilər həyəcan siqnalı ilə baza məntəqəsindən ayrılaraq Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi məqsədilə döyüş tapşırıqlarının icrası üzrə praktiki fəaliyyətləri yerinə yetiriblər.

HDQ bölmələri dənizdə terror-diversiya qruplarının məhv edilməsi və sualtı diversiya əleyhinə müdafiənin təşkili üzrə tapşırıqları icra ediblər.

Müxtəlif şəraitlərdə gəmi taktiki qruplarının təyinatı üzrə tapşırıqların icrası zamanı dəniz komandirləri ilə birgə fəaliyyətlərin işlənilməsi, döyüş fəaliyyətlərinin təşkili, qüvvələrin döyüşdə idarə olunması üzrə komandirlərin və qərargahların bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə keçirilən təlimdə HDQ şəxsi heyəti yüksək peşəkarlıq nümayiş etdirib.

# Günnüt əməliyyatı həmişə qələbə ovqatı ilə xatırlanacaq

*İkinci Qarabağ müharibəsi ordumuzun tarixi Zəfəri ilə başa çatdı. Tarixin gedişini öz axarına qaytaran və ədalətin bərpasına xidmət edən bu Zəfər 1993-cü ilin Horadiz əməliyyatında, 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında qazanılmış qələbələrin məntiqi və hərbi davamı oldu. Dünya ictimaiyyəti bir daha gördü və əmin oldu ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamları gerçəklikdir.*



İkinci Qarabağ müharibəsində Azərbaycan əsgərinin döyüş əzminə, qələbə ruhuna 2016-cı ilin Aprel döyüşlərində qazanılmış qələbənin hansı səviyyədə təsiri olubsa, 2018-ci ilin Günnüt əməliyyatında qazanılmış qələbənin də həmin səviyyədə təsiri olub...

Günnüt kəndi Naxçıvanın Şərur rayonundadı. Naxçıvan-Sədərək magistral yolunun sağında, Şərurun 22 kilometrliyində, Şərur düzənliyində yerləşir. Əksər tədqiqatçılar onun adını güney, gün dəyən, gün döyən yer kimi mənalandırırlar. Kənd qədim kənd idi. Bu qədimlik ərazidə və yaxın ərazidə mədəniyyətin qədimliyinin təsdiqi kimi qəbul edilmişdi, Naxçıvan mədəniyyətinin tərkib hissələrindən biri kimi tədqiq olunmuşdu. Elan edilmədən başlayan müharibənin ilk vaxtlarında Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndləri düşmənin müntəzəm həmlələrinə, hücumlarına məruz qalırdı. Bu həmlələrin, hücumların qarşısı alınırdı. Kəndlərin təhlükəsizliyinin icraçıları həm də kənd camaatı idi. 1992-ci ildə ermənilər Günnütü işğal etdi, evləri, kitabxananı, tibb məntəqəsini, qəbiristanlığı dağıtdılar. Əksəriyyəti Mahmudkəndə köçən kənd camaatı evəşiyinə qayıdacağına inanırdı. Bu işğal təsdiqləyirdi ki, Ermənistan təkcə Dağlıq Qarabağa deyil, Naxçıvandakı ərazilərimizə də iddialıdır...

Müharibə uzansa da, kənd camaatı doğma yurdlarına qayıdacağına inanırdı, ümidini itirmirdi.

2016-cı ilin Aprel döyüşləri qələbə ilə tamamlanmışdı, Azərbaycan Ordusu Lələtəpə, Bayraqtəpə kimi mühüm strateji əhəmiyyətli yüksəkliklər də daxil olmaqla, 2000 hektardan çox ərazini işğaldan azad etmişdi. Bu qələbə ordumuzun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu daha da yüksəltmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu qələbənin istər hərbi, istərsə də mənəvi-psixoloji əhəmiyyətini yüksək dəyərləndirmişdi: "Aprel döyüşləri dərsliklərə salınmalıdır". Həmin vaxtlarda bu döyüşləri sonrakı döyüşlərin başlanğıcı bilən əsgərlər Ali Baş Komandanın əmri ilə döyüşlərin davamını arzulayırdılar. Bu arzu şəxsi heyətin, deməli, xalqın arzusu idi...

26 il ermənilərin nəzarətində qalan Günnüt Ermənistanla təmas xəttindədi. İllərlə bu əraziyə düşmən nəfəsi də dəyirdi. Bəzi yüksəkliklər düşmənin, bəzi yüksəkliklər bizim ordumuzun mövqeləriydi - vətənsevərliklə işğalçılıq, azərbaycançılıqla ermənilik qarşı-qarşıya dayanmışdı. Necə deyərlər, ün yetirdi, əl çatırdı. O illərdə Günnüt istiqamətində döyüş növbətçiliyi aparan əsgərlərimiz hər ayın Aprel, hər döyüşün Aprel döyüşü olmasını istəyirdi. Bu istək Azərbaycanın ərazi bütövlüyünün bərpası istəyi kimi yaşanılırdı.

Azərbaycanda ordu quruculuğu elmi əsaslarla, bütün vacib şərtlər yerinə yetirilməklə, dünyəvi hərbi təcrübələrdən bəhrələnməklə ən müasir hərbi texnikalarla, uçuş aparatlarıyla, atıcı silahlarla təchiz edilməklə aparılırdı. Bu proses beynəlxalq təlimlərlə davam etdirilirdi. Dünyanın aparıcı dövlətləri də, işğalçı Ermənistan da gördü ki, Azərbaycan Ordusu güclü ordudur. İşğalçı dövlət həm də bu səbəbdən irimiqyaslı təxribatlar törətməkdən çəkinirdi...

Ermənistanla sərhəddə yerləşən Günnüt kəndinin relyefi müdafiə olunan tərəf üçün də, hücum edən tərəf üçün də əməliyyat aparmağa imkan verirdi. Bundan hərbi əməliyyat baxımından daha səmərəli bəhrələnmək həm də dislokasiya yeri Günnüt ətrafı olan hərbi hissələrin döyüş hazırlığından bilavasitə asılı idi. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Əlahiddə Ordunun şəxsi heyəti Günnütün taleyinə çökmüş dumanlığın dağıdılması əmrini qələbə ilə başa çatdırdı.

Günnüt əməliyyatı ərəfəsində Ermənistan müdafiə nazirliyi informasiya yaymışdı: "Son həftələrdə Ermənistan-Azərbaycan sərhədinin müəyyən hissələrində Azərbaycan qüvvələri mövqelərini inkişaf etdirmək və irəli çəkmək üçün aktiv mühəndislik işləri aparırlar. Bu cür hərəkətlər cəzasız qala bilməz". Bu informasiya işğalçı dövlətin yeni ərazilər iddiasında olduğunun, yeni təx-ribatlar törədəcəyinin proqnozları idi. Proqnozu mayın 20-də Şərur-Sədərək istiqamətində yeni təxribat törətməklə gerçəkləşdirmək istəmişdi. Niyyətinə çatmadı. Azərbaycan əsgəri həm ərazini işğaldan azad etdi, həm də düşmənə bir daha anlatdı ki, sən məğlubiyyətə məhkumsan.

Günnüt əməliyyatı 2018-ci il mayın 20-də başladı. Əlahiddə Ümumqoşun Ordu düşmənin niyyətini çiliklədi, istəyini tapdaladı. Günnüt əməliyyatı Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun ifadəsiydi. Bu döyüşlər 1992-ci ildə törədilmiş işğala görə erməniliyə qarşı azərbaycançılığın döyüşüydü. Günnüt əməliyyatı xalqın işğalın qınına çəkiləcəyinə, vətənsevərliyin əsgərləşdiyinə inamının döyüşüydü. Günnüt əməliyyatı bölgədə qarşıdurmada da, döyüş şəraitində də əsaslı dönüş yaradacaqdı. Ordu hissələrimiz əməliyyatı bu ruhla başlamışdı. Bu ruh xalqımızın dövlətçilik tarixinin ruhu idi. Bu ruh şəhidlərimizin Azərbaycan əsgərini döyüşə səsləyən ruhu döyüşü idi. Bu əməliyyat tarixi əməliyyat olacaqdı...

Günnüt əməliyyatında qazanılan qələbə ilə Xunut dağı, Qızılqaya dağı, Mehdidağ, Ağbulaq yüksəkliyi işğaldan azad edildi. İrəvan-Keşişkənd-Gorus-Laçın-Xankəndi avtomobil yolunu, Ermənistanla Qarabağı birləşdirən yolu ordumuz nəzarətə götürdü. Bu əməliyyatla ordumuz ucalıqda dayanır - Qızılqaya dəniz səviyyəsindən 1683 metr yüksəklikdədi. Günnüt əməliyyatı 11 min hektardan çox ərazidən erməni nəfəsini kürüdü.



Mayın 20-də əsgər Adil Tatarov Günnüt kəndi istiqamətində gedən döyüşdə şəhid oldu. Əsgər Adil Tatarov Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində anadan olmuşdu, 2017-ci ilin aprelindən xidmət edirdi. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edildi.

Günnüt əməliyyatında əsgərlərimiz 3-6 kilometr irəlilədi. Bu rəqəmin həm hərbi dəyəri, həm də mənəvi-psixoloji dəyəri ilə bərabər bir məqam da nəzərə alınmalıdır: Günnüt əməliyyatı ilə Əlahiddə Ümumqoşun Ordunun əsgərləri Dərələyəz mahalının Arpa kəndində, eləcə də Mehridərə vadisində düşmənin istənilən tərpənişinə nəzarət edir. Günnüt əməliyyatı ən uğurlu hərbi əməliyyatlarımızdan biri kimi tarixləşdi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il mayın 10-da Naxçıvanda Günnüt əməliyyatının istər hərbi, istərsə də mənəvi-psixoloji əhəmiyyətini xatırladaraq demişdi: "...Uğurlu Günnüt əməliyyatı - üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir. O əməliyyat Ermənistanda hakimiyyət dəyişikliyinə təsadüf etdi, ona görə hakimiyyətə gəlmiş yeni iqtidar bunu bir növ ört-basdır etməyə çalışdı. Biz də heç üstünü vurmadıq. Çünki bizə hansısa təbliğat yox, real iş lazımdır. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır".

Aprel döyüşləri deyəndə aprelin 5-ni xatırlayırıq, Günnüt əməliyyatı deyəndə mayın 27-sini, İkinci Qarabağ müharibəsi deyəndə noyabrın 8-ni...

**Kapitan**
**Məhəmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu"**

# Cəmşid Naxçıvanski adına Hərbi Liseydə tədbir keçirilib





*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən tədbirlər davam etdirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mayın 19-da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, liseyin şəxsi heyəti, müəllimlər, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan danışıblar.

Sonra incəsənət xadimlərinin ifasında vətənpərvərliyi tərənnüm edən mahnılar səsləndirilib, rəqs ansamblının iştirakı ilə milli rəqslər alqışlarla qarşılanıb.

Sonda bir qrup incəsənət nümayəndəsi "Heydər Əliyev İli" çərçivəsində keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirakına görə fəxri fərmanla mükafatlandırılıb, xatirə şəkli çəkdirilib.

# Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində tədbir: Günnüt zəfəri Qarabağa gedən yol





Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində "Günnüt zəfəri Qarabağa gedən yol" adlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Prezident İlham Əliyevin Günnüt əməliyyatı ilə bağlı çıxışını əks etdirən videoçarx nümayiş olunub.

Sonra Qarabağ və Günnüt zəfərinə həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər və mahnılar oxunub.

Günnüt əməliyyatının iştirakçısı olan hərbçilər tədbirdə çıxış edərək keçdikləri döyüş yolu barədə öz xatirələrini bölüşüblər.

Vurğulanıb ki, Günnüt əməliyyatı Azərbaycan Ordusunun peşəkarlığının təsdiqi kimi, dəqiq və planlı şəkildə hazırlanmışdı. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrinin yüksək peşəkarlığı sayəsində əməliyyat zamanı Ermənistanla üzbəüz mövqelərdə strateji yüksəkliklər ələ keçirildi. Bu da Vətən müharibəsi zamanı ermənilərin hərəkətlərini müşahidə etməyə imkan verdi.

Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının yüksək diqqəti və qayğısı sayəsində Azərbaycan Ordusu regionun ən güclü orduları sırasındadır.

Diqqətə çatdırılıb ki, ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilib. 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad etməsi böyük Zəfərə gedən yolun başlanğıclarından biri olub.

Daha sonra Günnüt əməliyyatında şəhid olan Adil Tatarovun xatirəsi anılıb, onun həyatından bəhs edən film nümayiş olunub.

Tədbir Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş rəqslə yekunlaşıb.

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, ordu sıralarında xidmət edən hərbi qulluqçuların hazırlıq səviyyəsinin və bölmələrin döyüş qabiliyyətinin daha da artırılması istiqamətində görülən işlər davam edir.*

# Hərbi Hava Qüvvələrində "Gizir hazırlığı" kursunun ilk buraxılış mərasimi keçirildi

Cari ilin döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Gizir hazırlığı" kursunun ilk buraxılış mərasimi keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu. Məzunlara Hərbi Hava Qüvvələri Komandanının təbrikləri çatdırıldı.

Buraxılış mərasimində çıxış edən polkovniklər Namiq Bayramov və Mehman Valehov hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında belə kursların əhəmiyyətindən danışdı, məzunlara gələcək xidmətlərində uğurlar arzuladılar.



Kursu bitirən hərbi qulluqçular təhsil müddətində yaradılan şəraitdən və təhsil prosesindən razılıqlarını bildirdilər. Məzunlar göstərilən etimadı doğrulmaq üçün burada qazandıqları bilik və vərdişləri xidmətdə inamla tətbiq edərək xidməti vəzifələrinin icrasına daha məsuliyyətlə yanaşacaqlarına, Azərbaycan Ordusunun hərbi qulluqçusu adını şərəflə daşıyacaqlarına söz verdilər.

Məzunlara sertifikatlar təqdim olunduqdan sonra kurs birincisi Xaliq Hüseynov yaş kötüyünə rəmzi emblem vurdu.

Sonda xatirə şəkli çəkdirildi.

**İsa İSMAYILOV**
**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Hərbi vəzifəlilərin asudə vaxtı səmərəli təşkil olunur

Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən, ehtiyatda olan hərbi vəzifəlilərin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə "N" hərbi hissəsində keçirilən təlim toplanışı davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim çərçivəsində şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar-təşviqat qrupu hərbi hissədə olub, mədəni-kütləvi tədbir keçirilib.

Tədbirdə ehtiyatdan çağırılan hərbi vəzifəlilərə vətənpərvərlik mövzusunda konsert proqramı təqdim olunub.

Keçirilən tədbir şəxsi heyət tərəfindən ruh yüksəkliyi və rəğbətlə qarşılanıb.

Sonda hərbi vəzifəlilərə hərbi vətənpərvərlik mövzusunda film nümayiş etdirilib.





## "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" müsabiqəsi keçirilir

Azərbaycan Ordusunun 2023-cü tədris ili üçün hazırlıq planına əsasən, hərbi hissə və müəssisələrdə "Ən yaxşı ictimai-siyasi hazırlıq qrupu" müsabiqəsi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbərlərinin pedaqoji vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçularla ideoloji işin düzgün aparılması qaydalarının qrup rəhbərlərinə öyrədilməsi məqsədilə keçirilən müsabiqənin əsas məqsədi hərbi kollektivlərdə döyüş əzminin daim yüksək səviyyədə saxlanılması, o cümlədən xalqa, dövlətə, Ali Baş Komandana və Hərbi anda sədaqətin şəxsi heyətə aşılanması, ictimai-siyasi hazırlıq dərslərinin keçirilməsi sahəsində qabaqcıl təcrübənin təbliğidir.

Plana uyğun olaraq hərbi hissə və müəssisələrdə əvvəlki mərhələlər üzrə qalib olanlar Azərbaycan Ordusu üzrə keçirilən müsabiqədə iştirak edirlər.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri hərbi qulluqçularla görüşüblər

Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2023-cü il üçün imzalanan birgə tədbirlər planına əsasən, Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində komitənin nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Çıxış edənlər hərbi kollektivdə düzgün qarşılıqlı münasibətlərin formalaşmasından, sağlam əhval-ruhiyyənin yaradılmasından söz açıblar. Dini radikalizm və ekstremizm təhlükəsizliyinin müdafiəsinin vacibliyini vurğulayaraq, ölkəmizdə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi məsələsinin yüksək səviyyədə olduğunu qeyd ediblər.

Daha sonra müxtəlif mövzulara dair şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb.

**Hərbi qulluqçu nə zaman Silahlı Qüvvələrin veteranı adına layiq görülür?**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrin sıralarında (SSRİ Silahlı Qüvvələri və digər silahlı birləşmələrində xidmət müddəti də nəzərə alınmaqla) təqvimlə 25 il və daha çox hərbi xidmət keçmiş (hərbi qulluqçunun şərəfini ləkələyən xətalar törədilməsinə və ya törədilmiş cinayətə görə məhkəmə tərəfindən hərbi xidməti istisna edən cəzaya məhkum edildiyinə görə ordu sıralarından və ya müvafiq orqanlardan xaric olunanlar istisna olmaqla) Azərbaycan Respublikası vətəndaşları Silahlı Qüvvələrin veteranları sayılırlar.

***Veteranlar haqqında Azərbaycan Respublikasının Qanunu, maddə 4.***

### Hərbi hüquq

# Hərbi qulluqçuların hüquqları

**Hərbi qulluqçuların attestasiyası nədir, nə üçün keçirilir?**

Hərbi kadrların düzgün seçilməsi, yerləşdirilməsi və tərbiyə edilməsi məqsədilə hərbi qulluqçuların (müddətli və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından, hərbi təhsil müəssisələrinin kursantlarından başqa) attestasiyası keçirilir. Attestasiya zamanı hər bir hərbi qulluqçunun işgüzar və mənəvi keyfiyyətlərinin obyektiv qiyməti verilir, tutduğu vəzifəsinə uyğunluğu və onun xidməti istifadəsinin perspektivi müəyyənləşdirilir, xidmətdə irəli çəkilmək və təhsil almağa göndərilmək üçün namizədlərin ehtiyatı aşkar edilir. Hərbi qulluqçuların attestasiyası üzrə bütün işlər onların xidmətdə və davranışda şəxsi nümunəviliyini təmin etməyə, onlarda tapşırılmış iş üçün yüksək məsuliyyət hissi tərbiyə etməyə, şəxsi heyətin döyüş hazırlığı, qoşunların döyüş və səfərbərlik hazırlığı, hərbi intizamın möhkəmləndirilməsi vəzifələrinin həlli üzrə onların təşkilatçılıq bacarığının inkişafına yönəldilməlidir.

***"Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, VII fəsil, maddə 86.***

**Hərbi qulluqçuların hansı məzuniyyət hüququ vardır?**

Dinc dövrdə həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulara aşağıdakı məzuniyyətlər verilir:

a) növbəti məzuniyyət;

b) qısa müddətli məzuniyyət;

v) xəstəliyə görə məzuniyyət;

q) tədris-təlimi zamanı məzuniyyət;

d) hərbi təhsil müəssisəsini bitirmək ilə əlaqədar məzuniyyət;

e) tədris məzuniyyəti;

y) yaradıcılıq məzuniyyəti;

z) qadın hərbi qulluqçulara hamiləliyinə və doğuşa görə, üç yaşı tamam olanadək uşağa qulluq etmək üçün məzuniyyətlər;

i) əlavə məzuniyyət.

***"Hərbi xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, VIII fəsil, maddə 114.***

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə "Tayfun" ballistik raketinin yeni sınaqları keçirilib



Mayın 23-də Türkiyədə ilk milli ballistik raketin - "Tayfun"un yeni sınaqları keçirilib.

Bu barədə Türkiyənin müdafiə sənayesi naziri İsmail Demir tviter səhifəsində məlumat verib. O, raketin uğurla buraxıldığını bildirib.

TRT telekanalının məlumatına görə, raket yerli vaxtla saat 06:44-də Qara dəniz sahilindəki Rize-Artvin hava limanı rayonundan buraxılıb. Buraxılış zamanı hava limanında və ətrafında gücləndirilmiş təhlükəsizlik tədbirləri görülüb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir müddət əvvəl bildirmişdi ki, raketin 561kilometr olan uçuş məsafəsinin 1000 kilometrə çatdırılması planlaşdırılır.

Roketsan kompaniyası tərəfindən hazırlanan "Tayfun" raketinin ilk sınaqları 2022-ci ilin oktyabrında da Qara dəniz üzərində həyata keçirilib. Raketin yaxın vaxtlarda Türkiyə ordusunun arsenalına daxil olması gözlənilir.

## ABŞ-ın yeni sanksiyaları Rusiyanın müdafiə sənayesi və texnologiya sektoruna yönəlib



İki yüzdən çox fiziki şəxs, qurum, gəmi və təyyarə ABŞ-ın yeni sanksiyalarına və ya əmlakının dondurulmasına məruz qalıb.

Bu barədə ABŞ-ın dövlət katibi Entoni Blinkenin bəyanatında deyilir.

Bəyanatda qeyd olunub ki, "bu gün tətbiq edilən sanksiyalar Rusiyanın hərbi-sənaye kompleksi, texnologiya, metallurgiya və dağmədən sektorlarına şamil edilir". Həmçinin sanksiyalar "Rusiya enerji sektorunun inkişafı ilə məşğul olan hüquqi və fiziki şəxsləri" də əhatə edir.

Bildirilib ki, sanksiyalar ukraynalı uşaqların münaqişə zonasından çıxarılmasında və "Ukraynadan oğurlanmış taxıl"ın ixracında iştirak edən şəxslərə qarşı tətbiq olunur.

"Sanksiyalar, həmçinin "Orlan" pilotsuz təyyarələrinin istehsalı ilə məşğul olan şirkət üçün komponentlərin satın alınmasında iştirak edən qurumlara da aiddir", - bəyanatda deyilir.

## Norveç Ukraynaya yeni silah paketinin veriləcəyini açıqlayıb



Norveç Ukraynaya yeni silah paketinin veriləcəyini açıqlayıb.

Norveç Krallığı hökumətinin saytı xəbər verir ki, yeni paketə üç ədəd əks batareya radarı və MLRS tipli səkkiz uzaqmənzilli reaktiv yaylım atəşi qurğusu daxildir. Avadanlıqların Ukraynaya verilməsi Böyük Britaniya ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçiriləcək.

"Biz Ukraynanı dəstəkləməliyik ki, o, azadlıq və müstəqillik uğrunda mübarizəsini davam etdirə bilsin. Daha çox silaha ehtiyac var və bizim göstərdiyimiz yardıma Ukrayna tərəfi tərəfindən böyük tələbat var, biz Böyük Britaniya ilə sıx əməkdaşlıq etmədən yardımın verilməsini təmin edə bilməzdik", - deyə Norveçin müdafiə naziri Byorn Arild Qram bildirib.

Norveç Müdafiə Nazirliyinin anbarlarından dərhal göndəriləcək İsveç istehsalı olan "Artur" əks batareya radarı xüsusən vacibdir. Bu radarlar düşmən artilleriyasını aşkar etmək üçün istifadə olunur. Paketə, həmçinin ABŞ istehsalı olan M270 Multiple Launch Rocket System MLRS reaktiv yaylım atəşi qurğusu daxildir.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunda hərbi beşnövçülük üzrə birincilik yarışı başa çatdı

İdmanla məşğul olmaq tək sağlamlığı artırmır, həmçinin insanda ruh yüksəkliyi yaradır. Bununla yanaşı insanda intizam, dözümlülük və çeviklik kimi müsbət keyfiyyətlər yaradır. Ölkəmizdə idmana göstərilən diqqət "sağlam bədəndə sağlam ruh" deyimi ilə xarakterizə oluna bilər. Azərbaycan gəncliyi ölkəmizi müxtəlif idman tədbirlərində layiqincə təmsil edir. Dövlətimiz də öz növbəsində idman inkişafı istiqamətində mühüm addımlar atır, uğurlu layihələr həyata keçirir. Ən yüksək beynəlxalq standartlara uyğun stadionlar, müasir avadanlıqlarla təchiz olunan idman kompleksləri salınır, idman şəhərcikləri tikilir, yenilənir. Görülən işlərin nəticəsində Azərbaycan idmançıları bütün idman növlərində beynəlxalq arenalarda Vətənimizə hər il müxtəlif medal və kuboklar qazandırırlar. Azərbaycan bayrağının ucaldılmasını, Dövlət Himnimizin səsləndirilməsini özlərinə ən böyük mükafat bilən idmançılarımızın bir hissəsi də ordu sıralarında xidmət edənlərdi. Bu onun göstəricisidir ki, Azərbaycan Ordusunda da idmana böyük maraq və diqqət var. Fiziki hazırlıqla döyüş hazırlığı arasında möhkəm əlaqəni nəzərə almaqla hər bir hərbi qulluqçu məsuliyyətini dərk edir, fiziki gücünün artması istiqamətində daim öz üzərində çalışır. Ordu rəhbərliyi tərəfindən bunun üçün bütün lazımi şərait yaradılıb: hərbi hissələrdə müasir idman avadanlıqları ilə təchiz olunan idman şəhərcikləri salınır, müxtəlif miqyaslı idman tədbirləri və yarışları keçirilir. Bu cür idman yarışlarından biri də hərbi beşnövçülük üzrə birincilikdir. Tarixi hələ Qədim Yunanıstandan başlayan beşnövçülük yarışları idmançıların fiziki qabiliyyət və bacarıqlarını sınamaqla yanaşı, həm də liderlik, dözümlülük bacarıqlarını yoxlayır. Lakin hərbi beşnövçülük birinciliyi müasir beşnövçülükdən fərqlənir. Yarış zamanı hərbi qulluqçular maneələr zolağının dəf edilməsi, 200 metr məsafəyə avtomatdan atış, qumbaraatma, 8 kilometr məsafəyə kros və maneələrlə üzmə növləri üzrə bacarıqlarını sınayırlar. Bu günlərdə keçirilən yarışda ayrı-ayrı qoşun növlərində və birləşmələrdə xidmət edən 56 hərbi qulluqçu olmaqla, 10 komanda fərdi və komanda birinciliyi uğrunda mübarizə apardılar.

Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü tədris ilinin hazırlıq planına əsasən, cari ilin 17-20 may tarixlərində Azərbaycan Ordusunda hərbi beşnövçülük üzrə birincilik keçirildi. Yarışlar uğurla başa çatdıqdan sonra Heydər Əliyev adına Hərbi İnstitutda baş tutan bağlanış mərasimində əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



Polkovnik Teymur Nəcəfov çıxış edərək qeyd etdi ki, ordumuzda şəxsi heyətin fiziki hazırlığı hər zaman diqqət mərkəzində saxlanılır. "Hərbi beşnövçülük yarışında hər birinizin göstərdiyi yüksək nəticələr bir daha sübut edir ki, Azərbaycan Ordusu Ali Baş Komandanın hər bir döyüş əmrini tam şəkildə yerinə yetirməyə qadirdir. Şəxsi heyət fiziki hazırlığını yüksək səviyyədə saxlayır, atəş hazırlığını təkmilləşdirir və nəticə etibarı ilə ordumuzun döyüş hazırlığı dünya standartlarına cavab verir. Aprel döyüşlərində düşmənə gözdağı verən ordumuz 44 günlük Vətən müharibəsində ermənilərin 30 ilə yaxın qurduğu istehkamları ən qısa zamanda məhv etməyi bacardı. Dünya gördü ki, Azərbaycan əsgəri igidlik nümunəsi göstərərək düşmənin üzərinə mətin addımlarla irəlilədi. Müasir silah və texnikalarla apardığımız savaş dünya hərb tarixinə yeni nəsil müharibəsi kimi yazılsa da, unutmamalıyıq ki, hər bir müharibədə əsas insan amilidir. Bu göstəricidə də ordumuz erməni silahlı qüvvələrindən dəfələrlə üstün idi. Bizim həm döyüş ruhumuz, həm də qələbəyə inamımız yüksək idi. Zəfər tarixi sizlərin əlinizlə yazıldı və əminəm ki, Azərbaycan əsgəri hər zaman Vətən torpaqlarını şərəf və ləyaqətlə müdafiə etməyə davam edəcək".

Daha sonra yarış iştirakçılarına birinciliyin yekun nəticələri çatdırılaraq, qalibləri açıqlandı. Gərgin mübarizə ilə yadda qalan beş çalışma üzrə xallar toplandı. Nəticələrə əsasən "Heydər Əliyev adına Hərbi İnstitut", "Quru Qoşunları" və "Hərbi Hava Qüvvələri" komandaları müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərdə qərarlaşdılar.

Fərdi şəkildə hərbi qulluqçular arasında ən yüksək xal toplayan Heydər Əliyev adına Hərbi İnstitutun kursantı Rəvan Kətənov birinci yerə layiq görüldüyü ilə fəxr etdiyini bildirdi. "Qalib gəlmək hər zaman xoş olsa da, ilk növbədə sevinirəm ki, təhsil aldığım Hərbi İnstitutu layiqincə təmsil etdim. Təhsil müddətimizdə komandir və müəllim heyəti hərbi intizamımızın yüksək olmasına, bilik və bacarıqların həvəslə mənimsənilməsinə, sıra və atəş hazırlığımıza ciddi diqqət edirlər. Bundan savayı, fiziki göstəricilərimizin də Zəfər qazanmış Azərbaycan Ordusunun zabitinə uyğun olması üçün çalışırlar. Biz öz növbəmizdə əlimizdən gələni edirik ki, onlar da, xalq da bizimlə fəxr etsinlər. Bu gün aldığımız dərslərin vacibliyini bir daha şahidi olduq. Tək fərdi birincilik deyil, həm də komanda şəklində yüksək peşəkarlıqla mübarizə apardığımız da göstərir ki, gələcəyin zabitləri hərtərəfli hazırlıqlıdır. Yaxın gələcəkdə mən də "leytenant" hərbi rütbəsini daşıyacağam və qalib Azərbaycan Ordusunun zabiti olacağam".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Eyub Eyubov fərdi birincilikdə ikinci pillədə qərarlaşdı. O bildirdi ki, hərbi qulluqçu üçün döyüş hazırlığı ilə yanaşı, fiziki hazırlığın da daimi yüksək səviyyədə saxlanılması vacib şərtdir. "Azərbaycan Ordusunda bir tədris ili ərzində plana uyğun olaraq, idman tədbirləri və yarışları keçirilir. Hərbi qulluqçular arasında daşqaldırma, hərbiləşdirilmiş kros, səmtimüəyyənetmə, yüngül atletika, futbol və idmanın bir çox növlərindən birinciliklər keçirilir. Beşnövçülük üzrə birincilik də bunlardan biridir. Bu cür yarışların keçirilməsi nəticəsində şəxsi heyət arasında sağlam rəqabət yaratmaqla, gənclərin arasında idmana diqqət artırılır. İlk növbədə yarışlara qatılan hər kəs qalib olmaq istəyir və mən bu münasibətlə kursant Kətənovu təbrik edirəm. 10 komanda arasından ən yuxarı xal topladığı üçün kuboka layiq görülən "Heydər Əliyev adına Hərbi İnstitut" komandasını da təbrik edirəm. Biz fəxr edirik ki, gələcək zabitlərimiz bu gündən qələbələrə vərdiş edirlər. Azərbaycan zabitinə zəfərlər yaraşır".

Fərdi birincilikdə üçüncü yeri isə "Heydər Əliyev adına Hərbi İnstitut" komandasının iştirakçısı, kursant Toğrul Həsənov qazandı. Toğrul öncədən deyilən sözlərə qoşularaq bildirdi ki, orduda keçirilən tədbirlərdə yüksək nəticələr göstərmək gələcək hərbi xidmətinə müsbət töhvədir. "Hərbi qulluqçu daim öz üzərində işləməlidir, bütün fərdi göstəricilərinin artırılmasını özünə borc bilməli, bununla bölməsinin göstəricilərinə təsir göstərdiyini dərk etməlidir. Öz növbəmdə söz verirəm ki, öz üzərimdə işləyəcək və növbəti yarışlarda daha yüksək yer tutmaq üçün bütün gücümü səfərbər edəcəm".

Sonda qalib komanda kubokla, fərqlənən hərbi qulluqçular fəxri fərman və medallarla mükafatlandırıldılar. Yarış iştirakçıları xatirə şəkilləri çəkdirdilər.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası Avropa çempionu olub




Azərbaycanın qrup hərəkətləri komandası Bakıda keçirilən bədii gimnastika üzrə 39-cu Avropa çempionatının qalibi adını qazanıb.

Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız üç lent və iki topla yarışın qalibi olub. Gimnastlarımızın möhtəşəm çıxışı hakimlər tərəfindən 32,250 xalla qiymətləndirilib.

İsrail komandası 32,150 xalla gümüş, ispaniyalı gimnastlar isə 31,200 xalla bürünc mükafata sahib olub.

"Ulduz kimi parla" şüarı ilə keçirilən qitə çempionatında 38 ölkədən 315 gimnast (böyüklər - 191, gənclər 124) mübarizə aparıb.

Xatırladaq ki, gənclərdən ibarət qrup komandamız çempionatın ilk günündə çoxnövçülükdə və beş topla yarışlarda bürünc medal qazanıb. Böyüklərdən ibarət komandamız da çoxnövçülükdə üçüncü olub. Gimnastımız Zöhrə Ağamirova top ilə yarışda bürünc mükafata layiq görülüb.

## Cüdoçularımız Avropa Kuboku turnirində 3 medal qazanıb



Azərbaycan cüdoçuları İspaniyanın Malaqa şəhərində keçirilən gənclər arasında Avropa Kuboku turnirində 3 medal qazanıb.

Yarışın ilk günündə 66 kiloqram çəki dərəcəsində çıxış edən Aydın Rzayev bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb.

Millimizin üzvü Süleyman Əliyev (73 kq) isə yarışı üçüncü pillədə başa vurub. Turnirin ikinci günündə isə Kənan Nəsibov (+100 kq) gümüş medala layiq görülüb. Ömər Rəcəbli (-81 kq. çəki) isə yarışı 5-ci yerdə başa vurub.

Turnirdə cüdoçularımız ümumilikdə 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanaraq oğlanlar arasında dördüncü, ümumi komanda hesabında beşinci yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

---

Polkovnik Məhərrəmov İdris Mustafa oğluna məxsus M/ V № 016376 nömrəli "Müharibə Veteranı vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

---

Baş leytenantlar Abdurrəhmanov Ramil Şeyix oğluna məxsus MN № 0051533 nömrəli və Məmmədov Teymur Mehdi oğluna məxsus MN № 0053923 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Leytenant Cəllili Tofiq Elçin oğluna məxsus MN № 0058205 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Kiçik leytenant Tağıyev İlkin Eldar oğluna məxsus MN № 0066428 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizirlər Qurbanov Orxan Aqil oğluna məxsus SQ № 0014731 nömrəli və Məmmədov Aqil Rafiq oğluna məxsus SQ № 0016665 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Feyzullayev Sədi Hüseyn oğluna məxsus AD № 0037719 nömrəli, kiçik çavuş Balabəyov Yaşar Faiq oğluna məxsus AD № 0039043 nömrəli, əsgər Manafli Mədət Elburus oğluna məxsus AD № 0047776 nömrəli, əsgər İsmayılov Qalib Şükür oğluna məxsus AD № 0053090 nömrəli, əsgər Quliyev Saməddin İldırım oğluna məxsus AD № 0047678 nömrəli, əsgər Əsgərov İlkin Hafiz oğluna məxsus AD № 0047656 nömrəli, əsgər Xəlilov Rəşad Elçin oğluna məxsus AD № 0044726 nömrəli və əsgər Qənbərov Pərviz Aydın oğluna məxsus AD № 0047474 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
baş leytenant
Oruc MUSTAFAYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 248
Nüsxə 4725